BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

**UOT 94 "19/...**

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ ŞİMALİ QAFQAZDA NASİST İŞĞAL REJİMİ

**R.Q.HƏTƏMOV**
***Bakı Dövlət Universiteti***
***rovshanhatamov@gmail.com***

*Almaniyanın nasist rəhbərliyi Qafqazda işğal siyasətinin hazırlanması və həyata keçirilməsinə böyük əhəmiyyət verirdi. İşğal olunmuş digər sovet ərazilərində olduğu kimi, Şimali Qafqazda da işğal hərbi və inzibati idarəetmə sistemi yaradılmışdı. Almaniyanın nasist rəhbərliyinin fikrincə, Qafqaz nasist ideologiyasının və alman həyat tərzinin marksizm-leninizmin ideologiyasına və sovet hakimiyyətinin siyasətinə nisbətən üstünlüklərinin parlaq və səciyyəvi nümunəsi olmalı idi.*

**Acar sözlər:** Şimali Qafqaz, nasist Almaniyası, nasist təbliğatı, kollaborasionizm, Sovet İttifaqı

Özünün zəngin ərzaq və neft ehtiyatları ilə Şimali Qafqaz nasist Almaniyası üçün cəlbedici və arzu olunan hədəf idi. Bölgəni ələ keçirməklə, o sovet rəhbərliyini ən əhəmiyyətli ehtiyatlardan məhrum etməyi düşünürdü, çünki bunlar olmadan müharibədə qalib gəlmək mümkün deyildi. Qırmızı Ordu komandanlığı və sovet siyasi rəhbərliyi üçün cəbhənin cənubunda alman hücumu gözlənilməz bir hadisə olmuşdu. Vermaxtın əsas zərbəsini tamamilə başqa yerdə – sovet ehtiyatlarının cəmləşdirildiyi cəbhənin mərkəzi hissəsində gözləyirdilər.

Qafqaz uğrunda 442 gün davam etmiş döyüşlər vuruşan tərəflər üçün yalnız növbəti strateji əməliyyat deyildi. Alman ali hərbi komandanlığı 1942-ci ilin yayında özünün əsas qüvvələrini və ehtiyatlarını sovet-alman cəbhəsinin cənub qanadında cəmləşdirərək, burada bütün müharibənin taleyini, nəhayət, öz xeyrinə həll etmək istəyirdi.

1942-1943-cü ildə Şimali Qafqazda cərəyan edən hərbi-siyasi proseslərin tərkibinə bölgənin əksər hissəsinin alman qoşunları tərəfindən işğalı da daxil idi. Almaniyanın nasist rəhbərliyi Qafqazda işğal siyasətinin hazırlanması və həyata keçirilməsinə böyük əhəmiyyət verirdi. Bu siyasət alman-faşist ordusu tərəfindən SSRİ-nin işğal olunmuş digər ərazilərində həyata keçirilmiş analoji siyasətdən fərqlənirdi. Onun əsas xüsusiyyətini Şimali Qafqazın çoxmillətli əhalisini işğal hakimiyyəti ilə sıx əməkdaşlığa cəlb etməyə, onu Qırmızı Ordu və sovet hakimiyyəti ilə mübarizədə alman ordusunun müttəfiqi edilməsi təşkil edirdi.

Şimali Qafqaz Böyük Vətən müharibəsi illərində vermaxtın işğal etmiş olduğu azsaylı rayonlardan biri idi ki, burada işğalçılarla yerli əhalinin bir hissəsinin əməkdaşlığı əhəmiyyətli dərəcədə geniş yayılmışdı. Bunu nəzərə alaraq, Şimali Qafqazda yaşayan bütün xalqların ayrı-ayrı nümayəndələrinin də daxil olduqları kollaborasionistlərin bu kateqoriyasının hərəkətlərin motivləri və davranış əhval-ruhiyyələrinin öyrənilməsi xüsusi elmi maraq doğurur. Bu meyllərin tarixi köklərinin tədqiq olunması, onun meydana çıxmasına imkan yaratmış səbəb-nəticə əlaqələrinin təhlili müharibənin ən ağır dövründə ölkənin siyasi həyatında aşkara çıxan bu təzahürün yaranmasının motivlərini anlamağa kömək edərdi. Sovet hakimiyyəti illərində SSRİ-nin alman qoşunlarının işğalı altındakı ərazilərdə kollaborasionizm hallarının tədqiq edilməsini qeyri-mümkün edən əsas səbəb problemin mənbəşünaslıq bazasının məxfiləşdirilmiş olması idi. Xarici ölkələrdə tədqiqatçıların bu problemlə bağlı əsərləri isə diqqətdən kənarda saxlanılırdı. Son 10-12 ildə tarixçilərin bu mövzuya marağının artması müşahidə olunur.

Böyük Vətən müharibəsi illərində Şimali Qafqazda millətlərarası münaqişələri öyrənən tədqiqatçılar elmi dövriyyəyə sosial-etnik birliklərin sovet cəmiyyətində yerini göstərən etnomilli status məfhumunu daxil etmişlər. Bu status bir sıra obyektiv faktorlar ilə xarakterizə olunur. Bunların sırasında xalqın federasiyaya daxil olma forması, onun xalqlar birliyində bərabər dəyərli və bərabər hüquqlu olmasının tanınması səviyyəsi, xalqın nümayəndələrinin hakimiyyət quruluşlarına daxil olunması və s. amilləri göstərmək olar. Bu statusun aşağı səviyyəsi milli sıxıntı hissini yaradır (10;73). Millətlərarası ziddiyyətlərin kəskinləşdiyi dönüş anlarında xalqların dövlətin millətlərarası münasibətləri nizamlanmasındakı qoruyucu funksiyasından qane olunmaması səviyyəsi daha da artır. Əksər hallarda belə vəziyyətlər yarandıqda xalqlar xüsusi müdafiə mexanizminə üstünlük verir - özünün tarixi keçmişinə müraciət edir. Milli-ərazi özünü təyinetmə uğrunda hərəkatı genişləndirir ki, bu da status ziddiyyətlərini bu üsulla həll edilməsi məqsədi güdür. Ziddiyyətlərin həll olunmaması isə millətlərarası toqquşmalara gətirib çıxarır.

Müharibə illərində Şimali Qafqazda millətlərarası qarşıdurmanın dərin tarixi və siyasi səbəbləri var idi. İlk əvvəl Şimali Qafqaz bölgəsinin ənənəvi olaraq yüksək etno-sosial və konfessional gərginliyi amili nəzərə alınmalıdır. Digər tərəfdən, burada sovet hakimiyyətinin XX əsrin 20-30-cu illərdə həyata keçirdiyi əsaslı yenidənqurma tədbirlərinin heç də həmişə milli xüsusiyyətləri nəzərə almaması faktı vurğulanmalıdır. Bu isə əhalinin əksər hissəsi ilə hakimiyyət arasında qarşılıqlı münasibətlərdə yeni ziddiyyətlərin meydana çıxmasına səbəb olmuşdu. Rusiyanın mərkəzi vilayətlərində belə çətinliklə keçirilən sosialist tədbirləri Şimali Qafqaz xalqları üçün ənənəvi və toxunulmaz olan nəsli hüquq, cəmiyyətin teyp quruluşu, ictimai həyatın bütün sahələrində dini ideyaların mütləq nüfuz etdiyi şərtlər daxilində siyasi nihilizm kimi məfhumlara ciddi şəkildə toxunurdu. Buna cavab olaraq Çeçenistanda, Dağıstanda, Qaraçayda çoxsaylı antisovet çıxışları baş verdi ki, bunların yatırılması

üçün ordunun cəlb olunması qərara alındı. Hakimiyyət idarəedicilik fəaliyyətində yol verdiyi ciddi səhvləri, əyintiləri və ifratçılığı, ictimai həyatın müəyyən sahələrinin islah edilməsini, həqiqi vəziyyətdən xəbərdar olmaması, mədəni və milli xüsusiyyətlərə etinasız yanaşmasını adətən güc metodları, repressiyalar ilə qaydaya qoymağa üstünlük verirdi. Hakimiyyətin sərt tədbirləri üsyanların daha geniş miqyas almasına və irəli sürülən tələblərin və şüarların tez bir zamanda radikallaşmasına səbəb olurdu. Hətta əvvəllər bölgədə müşahidə olunmayan bir hal kimi qadınların da bu üsyanlarda iştirak etmələrini qeyd etmək lazımdır. XX əsrin 30-cu illərinin ikinci yarısında bölgədə həyata keçirilən kütləvi repressiyalar silahlı çıxışların sayının daha da artmasına, əvvəllər bitərəf və hətta hakimiyyət ilə əməkdaşlıq edən insanların silahlı müqavimət dəstələrinə qoşulmasına səbəb oldu. Üsyançıların pərakəndə dəstələri tədricən yaxşı təşkil olunmuş iri hərbi birləşmələr formasında birləşməyə başladılar. Çıxışların fonunda ÜK(b)P-nın yerli təşkilatlarının üzvlərinin sayı azalırdı (7, 24).

Müharibə ərəfəsində beynəlmiləlçilik, SSRİ xalqlarının dostluğu ideologiyası və siyasəti marksizm-leninizm müddəalarının və ehkamlarının Stalinin təfsiri əsasında müəyyən edilirdi. Sosializm şəraitində milli bərabərliyin və bütün millətlərin və irqlərin nümayəndələrinin bərabər hüquqluluğun özünün ən yüksək forması olan xalqlar dostluğu səviyyəsinə çatdığını bəyan edən sovet hakimiyyəti onu beynəlmiləlçilik ideologiyasının əsas tezisi hesab edirdi. Xalqların yenilməz ittifaqı, SSRİ xalqlarının könüllü və səmimi ittifaqı qüdrətli çoxmillətli sosialist dövlətinin təməli kimi təqdim edilirdi. Şimali Qafqaz xalqlarında vətənpərvərlik və beynəlmiləlçilik kütləvi şüuru, hissləri və əhval-ruhiyyəsi təkcə təbliğat və təşviqat, maarifçilik vasitəsi ilə deyil, həm də təsərrüfat və müdafiə vəzifələrinin həllinə fəal olaraq qoşulmuş insanların əqidəsi, təcrübəsi və konkret nümunəsi ilə nail olunurdu. Yerlərdə bu istiqamətdə partiya və sovet orqanları öz fəaliyyətlərində sadəcə mərkəzin göstərişlərinə əməl etməklə kifayətlənmir, həm də bölgənin tarixi, dini, milli özünəməxsusluğunu, ailə-məişət adət və ənənələrini, əhalinin yaş, təhsil və s. xüsusiyyətlərini də nəzərə alırdılar. Məhz bu fəaliyyətin nəticəsi olaraq müharibənin ilk günlərindən başlayaraq əhalinin bütün təbəqələrinin yurdun müdafiəsinə fəal şəkildə qalxmasını göstərmək olar. Müharibə illərində Şimali Qaf-qazda yerli ehtiyatlar hesabına 16 milli hərbi hissə təşkil olunmuşdu: Çeçen-İnquşetiya MSSR-də 114-cü, Kabarda-Balkar MSSR-də 115-ci və s. süvari diviziyalar (5, 63-64). Lakin bununla yanaşı hərbi səfərbərlik tədbirlərinin keçirilməsi zamanı bir sıra səhvlərə yol verilməsi bu sahədə neqativ halların meydana çıxmasına gətirib çıxarmışdı. Fərarilik halları daha çox Qafqaz, Mərkəzi Asiya xalqlarından təşkil olunmuş milli diviziyalarda geniş yayılmışdı. Yerli əhalinin sovet ordusuna çağırışında ciddi vəziyyətin yaranması özünü belə bir faktda xüsusilə göstərir ki, Çeçenistanda müharibənin əvvəlində orduya çağırılmış kişi əhalisinin 63%-i dağlara çəkilərək orada keçmiş partiya rəhbərləri və DİXK-in əməkdaşlarının başçılığı ilə üsyançı dəstələr təşkil etmişdilər (4, 607). Tədqiqatlar göstərir ki, orduya səfərbərlikdə yaranmış belə bir vəziyyətin səbəbkarı

daha çox bu tədbirlərin keçirilməsində özbaşınalıqlara və ciddi yanlışlıqlara yol vermiş yerli hakimiyyət orqanlarıdır. Bəzi hallarda hətta hərbi xidmətə yararsız olan qocalar və əlillər də orduya xidmətə çağırılırdılar. 1942-ci il avqustun əvvəlindən dekabra kimi Qafqazda alman qoşunları ilə şiddətli döyüşlər getdiyi vaxt sovet komandanlığı bir daha fərarilik problemi ilə qarşılaşdı. Azərbaycan, gürcü və erməni milli diviziyalarından fərarilik daha böyük miqyas almışdı. Bu diviziyaların əsgərlərinin və kiçik komandirlərinin əksəriyyəti rus dilini bilmirdilər, bəziləri isə ümumiyyətlə savadsız idilər. Hərbiçilərin çoxu hələ döyüşlərdə iştirak etməmişdilər. Siyasi tərbiyə işi yarıtmaz vəziyyətdə idi. Ön mövqelərə günlərlə ərzağın və içməli suyun gətirilməməsi halları da var idi. Döyüş qabiliyyətlərini itirdikləri üçün hətta 223-cü Azərbaycan, 392-ci gürcü və 849-cu erməni diviziyalarını arxaya keçirmişdilər. Ümumilikdə, bu diviziyalardan 680 nəfər fərarilik etmişdi (3, 39).

Müharibə SSRİ-nin dövlət orqanizminin möhkəmliyinin ciddi şəkildə sınağa çəkilməsində müəyyən mənada katalizator oldu. Müharibə illərində bölgədə hərbi qarşıdurma ən yüksək nöqtəyə çatdı. Almaniyanın hərbi müdaxiləsi sovet dövlətinin burada yürütdüyü milli siyasətdə ziddiyyətləri kəskinləşdirdi, əhalinin bir hissəsi düşmən tərəfə keçdi.

Milli separatizmin artması mərkəzi və yerli hakimiyyətin zəifləməsi, sovet ordularının geri çəkilməsi ilə əlaqədar idi. 1941-ci ilin payızında bir sıra dağlıq rayonlarda sovet hakimiyyətinə qarşı üsyanlar qalxdı, hərbi xidmətdən yayınma kütləvi hal aldı. Bölgədə yerləşdirilmiş sovet qoşunlarında fərarilik edənlərin sayı yüzlərlə idi (7, 26).

1942-ci ilin yayında Qaraçay-Çərkəz, Kabarda-Balkar, İnquşetiyanın, Şimali Osetiyanın, Krasnodarın və Stavropolun bir hissəsi alman işğal zonasına daxil oldu. Bu ərazilərdən sovet qoşunlarının tələsik geri çəkilməsi arxada yaxşı təşkil olunmuş gizli müqavimət strukturunun, hazırlıqlı və təchiz olunmuş partizan dəstələrinin yaradılmasına imkan verməmişdi.

Bölgə əhalisinin müəyyən hissəsi işğalçıların tərəfinə keçdi. Onların alman işğal orqanları ilə ən geniş yayılmış kütləvi əməkdaşlıq forması vermaxtın hərbi və yardımçı birləşmələrində iştirak idi. Cəbhədə çoxsaylı itkilər, partizanlar ilə mübarizə və arxa rayonların mühafizəsi alman komandanlığını şərq legionlarının yaradılmasına razılıq verməyə vadar etmişdi. 1942-ci ilin mayına kimi alman komandanlığı Şimali Qafqaz legionu üçün 7 piyada taboru yaratmışdı (8, 24). Qafqaz uğrunda gedən döyüşlərdə alman hərbi komandanlığı şəxsi heyəti əsasən bu bölgənin sakinlərindən ibarət olan şərq legionlarından fəal istifadə edirdi. Yeni arxiv sənədlərinin təhlili əsasında qeyd etmək olar ki, sovet-alman cəbhəsinin başqa sahələrindən fərqli olaraq, burada onların funksiyaları yalnız alman qoşunlarının arxa cəbhəsinin mühafizəsini həyata keçirən yardımçı xidmət və partizanlarla mübarizə ilə məhdudlaşdırılmırdı. Şərq legionlarının tərkibindən bir sıra batalyonlar ön cəbhə xəttində idi və alman hərbi komandanlığının fikrincə, sovet qoşunları ilə döyüşlərdə onlar müsbət keyfiyyətləri ilə tanınırdılar. Belə bir faktı onunla izah etmək olar ki,

həmin hərbi hissələrin şəxsi heyəti yalnız alman düşərgələrində dözülməz şəraitə görə legionlara daxil olmuş Qırmızı Ordunun keçmiş hərbi əsirləri ilə deyil, həm də 1942-ci ilin payızında könüllü olaraq almanlar tərəfə keçmiş Cənubi Qafqaz cəbhəsinin milli diviziyalarının əsgərləri və zabitləri hesabına da artmışdı. Onların Qırmızı Ordu hissələrindən fərarilik etmələrini buradakı milli diviziyaların komplektləşdirməsi zamanı yol verilmiş kobud səhvlər və qeyri-rus millətlərin hərbi qulluqçuları ilə siyasi işin aparılması sahəsində mövcud olan boşluqlar ilə izah etmək olar.

İşğal olunmuş ərazilərdə nasist təbliğatının əhaliyə təsir göstərməsi məsələsini həddən artıq qiymətləndirmək lazım deyil. Bununla yanaşı materialların və sənədlərin obyektiv təhlili onu deməyə əsas verir ki, Almaniyanın siyasi-hərbi rəhbərliyi bölgənin işğalından xeyli əvvəl onun işğalı və burada SSRİ-nin digər işğal olunan bölgələrindən daha fərqli, bölgənin özünəməxsus xüsusiyyətlərini nəzərə alan siyasi tədbirlərin həyata keçirilməsini nəzərdə tutan xüsusi planlar hazırlamışdı. Hərbi əməliyyatların gedişi vermaxt rəhbərliyini bu plana müəyyən düzəlişlərin edilməsini vadar edirdi. Düzəlişlər əsasən yerli əhalini daha fəal şəkildə əməkdaşlığa cəlb etmək məqsədi ilə tərtib olunmuş planın liberallaşdırılmasına yönəlmişdi. İşğal olunmuş digər sovet ərazilərində olduğu kimi, Şimali Qafqazda da işğal hərbi və inzibati idarəetmə sistemi yaradılmışdı. Yerli əhalinin həyatının bütün sahələri, sənayenin və kənd təsərrüfatının inkişafı, sosial-mədəni sahə bu hakimiyyətin nəzarəti altına alınmışdı. Bölgənin inkişafının bir çox problemlərinə alman işğal hakimiyyətinin siyasəti mahiyyəti və istiqamətləri, yanaşma tərzi baxımından SSRİ-nin müvəqqəti işğal olunmuş digər ərazilərdə yürüdülən analoji siyasətdən xeyli fərqlənirdi (6, 55). Bölgənin çoxmillətli əhalisini öz tərəfinə çəkmək üçün yerli əhalinin hətta müharibə dövründə həyatının məqbul səviyyədə saxlamaq məqsədi ilə sosial-iqtisadi xarakterli bir sıra tədbirlər həyata keçirilirdi. Alman işğal hakimiyyətinin yerlərdə həyata keçirdiyi iqtisadi və sosial siyasət əsaslı surətdə düşünülmüşdü və yerli əhali üçün cəlbedici idi. İqtisadiyyatın inkişafının nasist qaydaları ilə yanaşı nümayişkaranə şəkildə Rusiyada inqilabaqədərki qaydalar da tətbiq olunurdu. Bunların sırasında bazar iqtisadiyyatına xas olan xüsusi mülkiyyətin toxunulmazlığı, azad sahibkarlıq və s. halları qeyd etmək olar. İşğal hakimiyyəti təhsil və səhiyyə sahələrini işlək vəziyyətdə saxlayır, işsiz qalmış şəhər əhalisini işlə təmin edir, kommunist ideologiyasına qarşı güclü əks qüvvə kimi dini həyatın canlanması məqsədilə tədbirlər həyata keçirirdilər. Həm bu tədbirlər, həm də amansız Stalin rejiminin qəbul edilməməsi amilləri yerli əhalinin bir hissəsinin işğalçıların tərəfinə keçməsinə zəmin yaradırdı. Nasistlərin yerli xalqlara onları Stalin rejimindən azad edəcəkləri və üçüncü reyxin tərkibində onlara dövlət qurumları yaradacaqları ilə bağlı verdikləri vədlərə inanan dağlı xalqlarının və kazakların antisovet millətçi nümayəndələri işğal hakimiyyət orqanları ilə əməkdaşlığa başlamışdılar. Bununla da hərbi dövrün əsas simvollarından biri kimi kollaborasionizm halları meydana çıxdı. Kollaborasionistlərin əksəriyyəti faşistlər ilə əməkdaşlığa ideya baxışlarına

görə deyil, işğal dövründə həyat şəraitinin ağır şərtlərinin təsiri altında getmişdilər. "Passiv", yəni məcburən kollaborasionizm daha çoxsaylı idi. Alman ordularının sovet hərbi qüvvələri ilə hərbi məğlubiyyətləri artdıqca düşmən ilə əməkdaşlıq etmək istəyənlərin sayı azalmağa doğru gedirdi. Özünün vüsətinə və iştirakçılarının sayına görə Böyük Vətən müharibəsi illərində Şimali Qafqazda kollaborasionizm SSRİ-nin faşistlər tərəfindən işğal olunmuş əraziləri ilə müqayisədə daha geniş miqyas almışdı. 1942-ci ilin yayında sovet ordularının hərbi məğlubiyyətləri, işğal dövründə və alman qoşunlarının bölgədən qovulmasından sonrakı ilk aylarda, müxtəlif hesablamalara görə, nasistlər 15 min nəfər, yəni Şimali Qafqaz əhalisinin 2%-ni (10, 20), və yaxud 4-5%-ni (2, 450) öz tərəflərinə cəlb edə bilmişdilər. Fərarilik hallarını, Şimali Qafqaz muxtariyyətlərində formalaşdırılmış sovet hərbi birləşmələrinin düşmənə kifayət qədər effektiv müqavimət göstərə bilməmələrini bu problemin tədqiqatçılarının əksəriyyəti bütöv xalqların bu cür ittiham olunmalarını əsassız hesab edirlər. Müharibə illərində bölgə əhalisinin əsas hissəsi nasist işğalına qarşı həm ön cəbhədə, həm də arxa cəbhədə fədakarlıqla çalışmışlar (1, 26). Kollaborasionizmin formaları və təzahürləri, Şimali Qafqaz əhalisinin ayrı-ayrı kateqoriyalarının düşmən düşərgəsinə keçməsinə zəmin yaratmış çoxsaylı səbəblər baxımından müxtəlif idi. Dağlı xalqlarının antisovet ruhlu millətçi nümayəndələri və kazaklar nəfslə onlara Stalin hakimiyyətindən azad ediləcəkləri və üçüncü reyxin tərkibində dövlət təsisatları yaradılacağını vəd etmiş nasist Almaniyası ilə əməkdaşlıq etməyə razılaşdı. Lakin əminliklə demək olar ki, kollaborasionistlərin əksəriyyəti faşistlərlə əməkdaşlığa ideoloji mülahizələrə görə deyil, işğal dövründə ağır həyat şəraitinin təsiri altında razılıq verməyə məcbur olmuşdular. Əksər vətəndaşlar üçün belə əməkdaşlıq özü, uşaqları, doğmaları və yaxınları üçün həyat və ölümün arasında seçim demək idi. "Passiv", yəni məcburi kollaborasionizm əsa yer tuturdu. Buna görə də, sovet qoşunları ilə döyüşlərdə alman ordusunun məruz qaldığı uğursuzluqların artması ilə düşmənlə əməkdaşlıq etmək istəyənlərin sayı davamlı olaraq azalırdı. Bununla belə, özünün əhatəsi və iştirakçıların sayına görə Böyük Vətən Müharibəsi illərində Şimali Qafqazda kollaborasionizm faşistlər tərəfindən işğal edilmiş Sovet İttifaqının digər əraziləri ilə müqayisədə daha genişmiqyaslı olmuşdur.

Ekstremal şəraitdə, yəni təxliyə və alman-faşist işğalı dövründə, Şimali Qafqazın əhalisinin davranışının motivləri yalnız onların düşdükləri konkret şəraitlə bağlı olmamış, həm də müharibədən əvvəlki illərdə formalaşmış ictimai şüurun xüsusiyyətləri ilə birbaşa əlaqədar idi. XX əsrin 20-30-cu illərində təqiblərə və təzyiqlərə məruz qalmış bölgə əhalisinin bir hissəsi bunları sovet hakimiyyətinə bağışlamadı və kollaborasionizmə meyl edərək düşmən düşərgəsinə keçdi. Amma faşistlər tərəfindən Qafqazda işğal olunmuş ərazilərdə öz iradəsinə rəğmən qalmış əhalinin əsas hissəsi üçün sağ qalmanın başlıca yolu nasist "yeni qayda"sı rejiminə uyğunlaşma oldu. Onlardan əksəriyyət üçün bu ağır məsələ eyni zamanda həm də yerinə yetirilə bilən oldu, çünki işğal rejimi burada öz məzmunu etibarı ilə vermaxtın daha əvvəl zəbt etdiyi Sovet İtti-

faqının başqa ərazilərindəkinə nisbətən daha mülayim idi. Şimali Qafqazın müxtəlif ərazilərində beş aydan on dörd aya qədər davam etmiş alman-faşist işğalı regionun inkişafını dayandırmadı. İşğal burada özünün iqtisadi və sosial siyasətini həyata keçirməyə çalışan yeni hakimiyyətin bərqərar olmasına səbəb oldu. İşğalçılar məhz əhalisinin çoxmillətli tərkibi, zəngin ərzaq və xammal ehtiyatları, nadir təbiəti və kurortları ilə Şimali-Qafqaz bölgəsinin zəbt etdikləri sovet ərazilərində Hitlerin "yeni qayda"sının xüsusi etalonu olmasında maraqlı idilər. Almaniyanın nasist rəhbərliyinin fikrincə Qafqaz nasist ideologiyasının və alman həyat tərzinin marksizm-leninizmin ideologiyası və sovet hakimiyyətinin siyasətinə nisbətən üstünlüklərinin parlaq və səciyyəvi nümunəsi olmalı idi. Bu məqsədlərə nail olmaq üçün işğalın başlanğıc dövründə-1942-ci ilin avqust-oktyabrında vermaxt qoşunları və işğal administrasiyası yerli əhaliyə öz loyal münasibətini israrla nümayiş etdirmək üçün onun maraqlarına uyğun olan bir sıra ictimai-iqtisadi dəyişikliklər həyata keçirdilər.

1942-1943-cü illərdə Şimali Qafqazda işğal hakimiyyətinin həyata keçirdiyi bütün tədbirlər bölgənin sərvətlərinin qarət olunması və yerli əhalinin məhv edilməsi məqsədilə əhalinin aldadılmasına yönəldilməmişdi. Nasistlər Qafqazda uzun müddətə məskən salmağa hazırlaşırdılar və buna görə də, yerli sakinlər ilə qarşılıqlı etimad və faydaya əsaslanan münasibətlərin qurulmasında maraqlı idilər. Lakin Qafqazın mənimsənməsinin və burada "yeni qayda" rejiminin möhkəmləndirilməsi ilə bağlı bütün proqramlarının həyata keçirilməsi tamamilə Şərq cəbhəsində alman ordusunun hərbi müvəffəqiyyətlərindən asılı idi. Qafqazın işğalı planlarının uğursuzluğu və Stalinqrad yaxınlığında məğlubiyyət regionun mənimsənməsi barəsində bütün planların və niyyətlərin həyata keçirilməsinin perspektivsizliyini göstərdi. Məhz buna görə də, 1942-ci ilin noyabrın sonlarından etibarən işğal hakimiyyətinin fəaliyyətində daha çox zorakılığın və Qafqazın ehtiyatlarının qarət edilməsinin elementləri özünü büruzə verməyə başladı. 1943-cü ilin yanvarında Şimali Qafqaz ərazisindən geri çəkilmənin başlanması ilə alman qoşunları Hitlerin əmrinə əsasən, "yandırılmış torpaq" taktikasının həyata keçirilməsinə başladılar ki, belə vəziyyət Sovet İttifaqının başqa zəbt olunmuş ərazilərdəki oxşar tədbirlərindən indi artıq heç nə ilə fərqlənmirdi.

**ƏDƏBİYYAT**


1. Бодрова Е.В. О причинах роста национального сепаратизма на Северном Кавказе в годы войны. // Журнал. Знание. Понимание. Умение. К 60-летию Победы в Великой Отечественной войне. М., 2005, №2, с.23-30.
2. Ибрагимов М. М. Власть и общество в годы Великой Отечественной войны: (На примере национальных республик Северного Кавказа). - М.: Моск. пед. гос. ун-т, 1998. 462 с.
3. Кавказ.1942–1943 годы: героизм и предательство // Военно_исторический журнал. М., 1991. №8, с.35-43
4. Кара_Мурза С. Советская цивилизация. Книга первая: От начала до Великой Победы. М., Алгоритм, 2002, 688 с.
5. Кирсанов Н.А. В боевом строю народов_братьев. М.: Мысль, 1984. 264 с.
6. Линец С.И. Северный Кавказ накануне и в период немецко_фашистской оккупации:

состояние и особенности развития (июль 1942 — октябрь 1943 гг.). Ростов_на_Дону, 2003. 341 с.
7. Марченко Г.В. Государственная национальная политика СССР на Северном Кавказе (1917–1945 гг.): военно-исторический аспект: Автореф. дис. ... докт. ист. наук. М., 2004. 47 с.
8. Напсо Н.Т. Восточные легионы в вермахте в годы Великой Отечественной войны. Автореф. дис... канд. ист. наук. Майкоп, 2000. 30 с.
9. Солдатова Г.У. Психология межэтнической напряженности. М.: Смысл, 1998. 389 с.
10. Тепляков Ю. По ту сторону фронта // Московские новости. 1990, 13 мая.

## НАЦИСТСКИЙ ОККУПАЦИОННЫЙ РЕЖИМ НА СЕВЕРНОМ КАВКАЗЕ В ГОДЫ ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

**Р.Г.ГАТАМОВ**

### РЕЗЮМЕ

Гитлеровское руководство придавало огромное значение разработке и последующему претворению в жизнь оккупационной политике на Кавказе. В ходе битвы за Кавказ немецкое военное командование активно использовало восточные легионы, личный состав которых в большинстве своем состоял из уроженцев данного региона.

Как и на других захваченных немецкими войсками советских территориях, здесь была установлена оккупационная военная и административная система. Большинство коллаборационистов пошли на сотрудничество с фашистами не по идейным соображениям, а под воздействием тяжелых условий жизни в период оккупации.

По замыслу гитлеровского руководства Кавказ должен был явиться ярким и показательным примером преимуществ нацистской идеологии и немецкого образа жизни над идеологией марксизма-ленинизма и политикой Советской власти.

**Ключевые слова:** Северный Кавказ, нацистская Германия, нацистская пропаганда, коллаборационизм, Советский Союз

## NAZI OCCUPATION REGIME IN THE NORTH CAUCASUS DURING GREAT PATRIOTIC WAR

**R.G.HATAMOV**

### SUMMARY

The authorities of Nazi Germany attached great importance to the development and implementation of occupation policy in Caucasus. During the battles for the Caucasus, German military command were actively deploying the Eastern Legion comprised of this region's residents.As in other occupied Soviet territories, military occupation and administrative system was established in the North Caucasus. Most of the collaborationists collaborated with Nazis not because of their idea but the hardliving conditions during the occupation.

According to Nazi government ,Caucasus had to be a brighter and specific example that proved the advantages of Nazi ideology and German way of life in comparison with Marxist-Leninist ideology and the Soviet regime.

**Key words:** Northern Caucasus , Nazi Germany , Nazi propaganda , collaborationism , the Soviet Union